Azərbaycan Respublikası adından

QƏTNAMƏ

İş № 2(103)-XXX

Bakı şəhəri
08 may 2019-cu il

Bakı Apellyasiya Məhkəməsinin Mülki Kollegiyası,

hakimlər Namiq Cəfərov (sədrlik edən), Şərafət Məmmədova və Vüqar Həsənovdan ibarət tərkibdə,

Aytən Kərimovanın katibliyi ilə,

iddiaçı XXXX qızının cavabdeh "ZXX" İstehsalat Birliyinə qarşı "borcun silinməsi barədə" iddiasına dair mülki iş üzrə Xətai Rayon Məhkəməsinin XXX-cu il tarixli qətnaməsindən "ZXX" İB-nin tərəfindən verilmiş apellyasiya şikayətinə açıq məhkəmə iclasında baxaraq

müəyyən etdi:

Həmin qətnamə ilə qət olunub ki, iddiaçıya aid olan ünvanda qaz sayğacının sıradan çıxmasına görə cavabdeh tərəfindən iddiaçıya hesablanmış borc silinsin.

Apellyasiya şikayətində tələb olunub ki, qətnamə ləğv edilsin.

Tərəflər məhkəmə iclasına gəlməmişlər.

Apellyasiya şikayəti rədd olunmalıdır.

Belə ki, iddiaçıya aid olan ünvanda yerləşən qaz sayğacının sıradan çıxmasına görə hesabat aparılmış, dəymiş ziyanın əvəzi kimi iddiaçıya borc hesablanmışdır. İddiaçının sayğaca müdaxilə etdiyini təsdiq edən heç bir sübut yoxdur. İddiaçı sayğacın mühafizəsinə görə məsuliyyət daşımır. Ona görə də məhkəmə Mülki Məcəllənin 21, 1096, 1097-ci maddələrinin göstərişlərinə, habelə Nazirlər Kabinetinin 12.05.2011-ci il tarixli, 80 nömrəli qərarı ilə təsdiq edilmiş "Qazdan istifadə Qaydaları"na və "Qaz təchizatı haqqında" Qanunun 13-cü maddəsinin göstərişinə əsaslanaraq hesab edir ki, 1-ci instansiya məhkəməsi iş üzrə düzgün nəticəyə gəlmişdir.

Yuxarıda göstərilənlərə əsasən və Mülki-Prosessual Məcəllənin 372, 384-392-ci maddələrinin göstərişlərini rəhbər tutaraq, məhkəmə

qət etdi:

Cavabdeh "XX" İB-nin apellyasiya şikayəti rədd olunsun.

Hazırkı iş üzrə birinci instansiya məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Qətnamədən kassasiya şikayəti verilə bilməz.

Qətnamə çıxarıldığı andan qanuni qüvvəyə minir.